UOT (UDK) 3. 37

# MƏKTƏBLİLƏRƏ PEDAQOJİ DƏSTƏYİN REALLAŞDIRILMASININ FORMA VƏ NÖVLƏRİ

***dosent Bayramova Ziyafət Vilayət qızı, Beydullayeva Lalə Daşdəmir qızı***
***Gəncə Dövlət Universiteti***
***ziyafet@bk.ru***
***lala.beydullayeva.93@mail.ru***

**Xülasə:** *Pedaqoji dəstək müasir təhsilin konseptual yanaşmalarının ayrılmaz bir hissəsidir. Müasir məktəb mühiti mürəkkəb, şagirdlər daha tələbkardır. Pedaqoji prosesdə məktəblinin özünüdərki, özünüinkişafı, pedaqoji prosesin demokratik prinsiplər əsasında qurulması mühüm şərtlərdən biri olmalıdır.*

*Pedaqaoji dəstəyin zamanında göstərilməsi pedaqoji prosesdə yaranmış problemlərin vaxtında aradan qaldırılmasına xidmət edər. Bu prosesdə əsas yer müəllimin pedaqoji ustalığına və şagirdin tam sərbəst yanaşmasına verilməlidir. Məlumdur ki, ziddiyyətlərin aradan qaldırılması pedaqoji prosesdə hərəkətverici qüvvəyə çevrilir.*

**Açar sözlər:** pedaqoji dəstək, dəstəyin forması, pedaqoji dəstəyin növləri, humanist pedaqogika, psixoloji dəstək

**Ключевые слова:** педагогическая поддержка, форма поддержки, виды педагогической поддержки, гуманистическая педагогика, психологическая поддержка

**Key words:** pedagogical support, form of support, types of pedagogical support, humanistic pedagogy, psychological support

Elmi-pedaqoji ədəbiyyatın təhlili onu göstərir ki, bir sıra humanist pedaqogikanın nümayəndələri tərəfindən (Ş.A.Amonoşvili, V.P.Bederxanov, A.A.Qalitskix, İ.D.Demakov, S.D.Polyakova və b. ) aparılan araşdırmalar diqqətimizi çəkməklə müasir təhsilin konseptual yanaşmaları çərçivəsində məktəblərdə pedaqoji dəstəyin reallaşdırılması məsələsinin prioritetlər sırasında təqdim edilməsi məqsədyönlü təhsilin vacib məqamlarından olduğunu qeyd edə bilərik.

Pedaqoji dəstəyin məqsədi-böyüməkdə olan gənc nəslə özünütəsdiqin, özünüreallaşdırmanın dərk etdilməsi və uşağın subyektiv mövqeyini formalaşdırmasından ibarət olmalıdır.

Pedaqoji dəstəyin vəzifələri-müəllim tərəfindən uşağın probleminin dərki, yaranmış vəziyyətin düzgün dəyərləndirilməsi, problemin həlli üçün optimal seçimlərin uşaqla birgə edilməsi, uşağın özünüinkişafının perspektivlərinin dərki üçün şəraitin yaradılması və s. olmalıdır [3].

***Y.Y.Kuteykovaya görə pedaqoji dəstəyin növləri [1]***

| Əsaslandırılma | Xüsusiyyətlər |
|---|---|
| Yaranma tipinə görə | Şərtiz<br>Şərti olaraq (uşağın razılığı əsasında) |
| Vaxta görə dəstəyin həyata keçirilməsi | Real<br>Qabaqlayıcı |
| Təsir formasına müvafiq | Fərdi<br>Qrup şəklində |
| Sosial institutların təsirinə görə | Məktəb<br>Ailə<br>Din<br>KİV |
| Müəllimin təsirinə görə | Emosional<br>Inandırma |
| Dəstəyin istiqamətinə görə | Pedaqoji<br>Psixoloji |

| | |
|---|---|
| | Sosial<br>Tibbi<br>Hüquqi və s. |

Fəaliyyətə görə dəstəyin növləri - İ.L.Korduban [2]

**Psixoloji dəstək**

- Psixoloji diaqnostika;
- Uşağın ünsiyyətinin psixogigiyenası;
- Müəllimlərin xüsusi sosial-psixoloji hazırlığı;
- Ailənin və pedaqoji kollektivin psixoloji profilaktikası;
- Uşağın daxili aləminin saflaşdırılması;
- Insanlararası konfliklərin dayandırılması;
- Oyunda davranışın və ünsiyyətin korreksiyası;
- Özünütəsdiq və özünüdərkə köməklik;
- Özünüinkişaf və özünütərbiyə proqramlarının tərtibi.

**Pedaqoji dəstək**

- Uşaq yaşadığı mühitin tədqiqi;
- Uşağın yaşam tərzinə təsir edən pozitiv və neqotiv faktorların üzə çəxarılması;
- Uşaq öhtəsindən gələ bilməyəcək problemlərin göstərilməsi;
- Problemin həllinə müəllimlərin və digər mütəxəssislərin cəlb edilməsi;
- Məsləhətlərin təşkili;
- Yaranmış pedaqoji problemin həlli üçün nəticələrin birgə təhlili;

**Sosial- pedaqoji dəstək**

- Uşağın haqlarının qorunulması və müdafiəsi;
- Böyüklər və digər insanların təcavüzündən uşaqları qorumaq;
- Uşaqların düzgün qidalanması, istirahəti və müalicəsinin təşkili;
- Yaşayış problemlərinin həlli;
- Gündəlik tələbatlarının ödənilməsi;
- Maddi maraqların qorunması;
- Ailə mühitinin araşdırılması;
- Uşağı əhatə edən mühitin öyrənilməsi (yaşayış yerinə görə, yaşıdları);
- Sosial adaptasiyasının xüsusiyyətlərinin öyrənilməsi.

Yuxarıda qeyd etdiklərimizə görə əsas vurğu xəbərdarlıq, qorumaq, müdafiə, qayğı kimi məqamlarda özünü göstərir. Göründüyü kimi dəstəyin bütün növləri problemlərin sosial və şəxsi aspektdə həllinə yönəldilmişdir.

Pedaqoji dəstəyin subyektləri olaraq ekspertlər fənn müəllimlərini, sinif rəhbərlərini, psixoloqları, sosial pedaqoqları, tibb personalını, valideynləri və məktəbin rəhbərliyini göstərirlər. Lakin qeyd etdiyimiz kimi, məqsədyönlü pedaqoji dəstək fəaliyyəti çox aktiv şəkildə müzakirə olunmaqdadır. Ənənəvi olaraq təlim-tərbiyə prosesi və şagird arasında vasitəçi qismində sinif rəhbəri iştirak edir. Ancaq nəzərə o fakt da alınmalıdır ki, sinif rəhbərinin üzərinə daha çox məsuliyyət düşür və pedaqoji prosesdə onsuzda işi çox yüklü olur. Hər bir şagirdə ayrılıqda pedaqoji dəstək göstərmək daha çox formal xarakter daşıyır.

Müasir məktəbdə təhsil prosesinin iştirakçıları həm şagird, müəllim, valideynlər, psixoloq, sosial pedaqoq, sinif rəhbəri və xeyli sayda peşəkar insanlar olmuşdurlar. Lakin tədqiqatçılar göstərirlər ki, bir çox hallarda bu iş düzgün qurulmadığından nəticəyönümlü ola bilmir. Vəzifələrin və mövqelərin düzgün müəyyən olunmadığı hallarda bir-birinin səlahiyyətinə müdaxilə edən pedaqoji prosesin iştirakçıları məqsəddən uzaqlaşaraq nəticə göstərə bilmirlər.

İddia etmək olar ki, pedaqoji dəstəyin ideoloji mahiyyətinin əsası 3 əsas məqama yönəlir:

–Problem

–Müdafiə
–Sərbəstlik
Problem-reallıq və gözlənilən fəaliyyətin nəticəsi uyğun gəlmədiyi halda
şagird neqativ təsirə məruz qalır.

Müdafiə-uşağın marağı və hüquqları mütləq şəkildə nəzərə alınmaqla problemin həlli nəzərdə tutulur.

Sərbəstlik-uşağın sərbəst şəkildə problemin həll edilməsinə sövqüdür ki, burada yalnız sığorta və qarant olaraq müəllim çıxış edə bilər. Çunki müəllim problemin aşkar edilməsində və həlli yolunda optimal seçimlərdə uşağa yaxından köməklik göstərir.

Pedaqoji dəstəklə bağlı elmi-pedaqoji ədəbiyyatın təhlilinə gəldikdə, demək olar ki, məqsədyönlü pedaqoji müşahidələr,bu problemə dair aparılan təcrübələr, imkan yaradır ki, nəticənin əldə olunmasının şərtlərini müəyyən edək:

1. Dəstək üçün uşağın razılığının alınması. Uşaq pedaqoji dəstəyi istəyə bilər və yaxud əksinə, rədd edər. Şərtsiz dəstək (müdaxilə) o zaman olur ki, uşağın həyatı təhlükədə olsun, yaxud asosial davranış müşahidə edilsin.

2. Uşağın öz problemlərinin həlli üçün təşəbbüs göstərməsi.Problemin mahiyyətinin dərki üçün müəllim tərəfindən yalnız lazımı şərait yaradılır. Müəllim öz köməyini təklif edir, problemin həlli üçün dolayı da olsa komək etməyə çalışır. Lakin burada üşağa tam sərbəstlik verilməlidir. Müəllim öz işi ilə yalnız istiqamətləndiricidir.

3. Əməkdaşlıq, birgə fəaliyyət. Bu şərtə əsasən pedaqoji dəstəyin məzmunu və texnoloji mahiyyəti nəzərə alınmalıdır. Problemin həlli üçün prosesin gedişatında birgə əməkdaşlıq fəaliyyəti baxımından optimal seçimlərin olmasıdır.

4. Mütləq şəkildə konfedisiallığın gözlənilməsi. Diaqnostik prosedurların, şəxsi söhbətlərin aparılmasında uşağın etibarını və etimadını qazanmaq üçün mütləq şərtdir. Uşaq tam şəkildə inandığı insanın pedaqoji dəstəyini qəbul etməyə hazırdır.

5. Xeyirxahlıq və mühakimədən uzaq olmaq. Uşaqla müsbət emosional tonda ünsiyyətin qurulması müəllimin pedaqoji dəstəyinin qarantı ola bilər. Lakin bəzi məqamların zərgər dəqiqliyi ilə gözlənilməsi şərt olmalıdır. Müəllim uşağın etdiyi hərəkətləri heç kimin hərəkətləri ilə müqayisə etmirsə, onu dinləyir və problemləri haqqında məlumatı şagirdin özündən almağa nail olursa, pedaqoji dəstəyidə göstərə bilir. Lakin cüzi də olsa uşağın problemlərinə tənqidi müstəvidə yanaşmasını nümayiş etdirirsə, bu halda uşaq müəllimdən dəstəyi qəbul etmir və özündə qapanır.

6. Uşağın hüquqlarının və maraqlarının qorunması. Müəllim vəkil kimi vəziyyətdən asılı olmayaraq daim uşağın maraqlarından çıxış edir, onun tərəfini saxlayır. Ümumi qəbul olunmuş normaları belə uşaq pozduqda cəzanın yumşaldıcı tərəflərini qeyd edir, göstərir ki, o, hələ uşaqdır və bu kimi səhvlərə yol verə bilər. Müəllim burada uşağın maraqlarını qoruyan mühafizəçidir.

Günün reallıqlarına nəzər salsaq, görərik ki, bu gün müəllimlər işin həcminin böyük olduğundan giley etməklə, sinif rəhbərinin funksiyalarını sadələşdirirlər və formal xarakter səviyyəsində təqdim edirlər. Məktəblərdə sinif rəhbərləri tərəfindən şagirdlərə pedaqoji dəstəyin olması danılmazdır, lakin bu iş epizodik xarakterə malikdir desək, yanılmarıq.

Məktəb fəaliyyətinin məzmun baxımından analizi nəticəsində məlum olur ki, şagirdlərə göstərilən pedaqoji dəstək bir çox hallarda məktəbdə inzibati xarakter daşıyan problemlərin həllinə yönləndirilir: bu halda pedaqoji dəstək təlim-tərbiyə prosesinin uşaqlardan mühafizəsini göstərir, təlim prosesinin iştirakçısı olan şagirdin şəxsiyyətyönümlü təhsil prosesi çərçivəsində problemləri sanki unudulur.

Pedaqoji dəstəyin peşəkar pedaqoji fəaliyyət çərçivəsində baxış bucağı fərqlidir və kompleks problemlərə rakusu başqa formatda istiqamətləndirir: təlimdə geri qalan uşaqlar, çətin tərbiyə olunan uşaqlar, uğursuz ailədən olan uşaqlar. Bunlar nəzərə alınaraq pedaqoji

mövqe yeni yanaşmalarla özünü göstərir: mübarizə aparmaq deyil, müdafiə etmək kimi məqamlar üzə çıxır.

Pedaqoji dəstək bir mexanizm kimi bütöv pedaqoji prosesin tərkib hissəsi olmaqla təhsil müəssisəsinin fəaliyyətinin əsas, fundamental prinsiplərinə əsaslanmalıdır. Bir çox pedaqoji yazılarda pedaqoji dəstək konsepsiyasının məktəb kollektivləri tərəfindən reallaşdırıl maq dadır. Lakin həyata keçirilən dəstək şəxsiyyətyönümlü xarakter daşımır, məktəblinin şəxsi maraqlarından və tələbatlarından çıxış etmir, formallıq burada daha çox üstünlük təşkil edir. Müəllimlərin peşəkar müşahidələri, diaqnostikası, tipik problemlərin ümumiləşdirilməsinə əsaslanaraq təqdim edilir. Burada problemlərin həlli üçün mexanizmin hazırlanması və tətbiqi deyil, qrup şəklində profilaktik işlərin aparılmasına üstünlük verilməkdədir.

Lakin tədqiqat prosesində nəticələrin əldə olunmasına istinad etməklə aşağıdakıları təqdim edə bilərik:

1. Tədris ilinin əvvəlində, uşaqlar tətildən məktəbə döndükləri zaman məktəb həyatına uşaqların adaptasiyası pedaqoji kollektivin işi.

Uşaqlar üçün bu adaptasiya dövrü təlim prosesinə "köklənmək" emosional və psixoloji cəhətdən çox mürəkkəb olur. Uşaqların təlim prosesinə daxil olmaları fərqli müddət tələb edir. Peşəkar müəllimlər bunları nəzərə alaraq təlim yükünü tədricən artırırlar, güzəştli rejimlə fəaliyyət işlərini qurnmağa çalışırlar.

2. Keçid siniflərdə çalışam müəllimlərin fəaliyyətləri (birinci, beşinci,doqquzuncu)

Bu dövrlərdə təlim fəaliyyətinin sosial situasiyası dəyişkən olur. Uşaqların emosional diskomforta məruz qalırlar. Buna aiddir: yeni təlim şəraiti, sinifdə münasibətlərin yeni müstəvidə formalaşması, müəllimlərin tələbləri, yeni təsəvvürlər. Psixoloqların qənaətinə görə şagirdin uzunmüddətli dezadaptasiyası diqqətin zəif olmasına, tez yorulmalara, davranışda problemlərin yaranması ilə nəticələnə bilər.

3. Oxşar problemləri olan qruplarla işin qurulması. Bu qruplar gündəlik müəllimlərin

müşahidələri və xüsusi diaqnostik işlərin nəticəsində müəyyən edilə bilər (fənnə görə uğursuz olanlar, utancaq, özgüvəni aşağı olan şagirdlər).

4. Maraq və səriştələrinə görə şagirdlərin yaradıcı kollektiv işlərə cəlb edilməsi. Burada müxtəlif istiqamətlərdə qabiliyyətlərin inkişafını nəzərdə tutan məqamlarda uşaqlara pedaqoji dəstəyin olması nəzərdə tutulur. Lakin qrup şəklində olan fəaliyyət növləri pedaqoji dəstəyin göstəriləcək son məqamı deyildir. Pedaqoji dəstəyin bir sıra mərhələlərinni təsnifatını təqdim edə bilərik. Bunlara aiddir:

diaqnostik-konkret faktın nəzərə alınması ilə problemin müəyyənləşdirilməsi, mövcud problemin diaqnostikasının aparılması məqsədi ilə şəraitin layihələndirilməsi. Bu zəmində problemin verballaşdırılması, uşaqla kontaktı yaradılması, uşaq üçün problemin bütün cəhətləri baxımından dəyərləndirilməsi;

axtarış-problemə uşağın "gözləri ilə baxış", uşaqla birgə problemin səbəblərinin öyrənilməsi fəaliyyətinin təşkili. Tədqiqatçıların fikrincə bu proses uzun zaman tələb edə bilər. Buraya aid edirlər: müzakirələr, müşahidələr, problemin yaranmasına aid olan insanlarla görüşlər, problemin həlli üçün atılan addımlar və s. Nəticələrin müzakirəsinə gəldikdə, ən önəmli məqamlardan biri müəllimin qabaqcan proqnoz vermək qabiliyyətidir, problemlə bağlı təlimin keçid mərhələlərinin mürəkkəbliyinin nəzərə alınması, yaranan situasiyaların mövcud problemin həllinə təsiri və s. Uşağın aktivliyinin tənzimlənməsi müzakirə prosesində müəllimin fəaliyyətinin mütləq şərtlərindən olmalıdır. Seçimlərə üstünlüklərin verilməsi prosesi uşaöın adekvat hesab etdiyi vəziyyətə istinadən həyata keçirilməlidir;

razılaşma (danışıq)-şagirdin və müəllimin birgə fəaliyyətinin layihələndirilməsi (problemin həllində funksiyaların və məsuliyyətin paylaşılması), nəticə etibarı ilə hər hansı bir formada razılığın əldə olunması.

Fəaliyyətə dair;

a) Uşaq özü seçimlər edir  və müəllim tərəfindən onun seçimləri dəstəklənir, fəaliyyəti tənzimlənir, şagird tərəfindən atılmış müstəqil addımlar rəğbətləndirilir;

b) Seçimlər müəllim tərəfindən edilir: məktəbdə və onun hüdudlarından kənarda pedaqoji aspektdə sistemli təsirlərin göstərilməsi, uşağa birbaşa, təxirəsalınmaz köməklik

Refleksif fəaliyyət-fəaliyyətin öncədən olan mərhələlərinin uşaqla birgə müzakirəsinin aparılması, uğur və məğlubiyyətin analizi, problemə dair faktların qabardılması, problemin daha optimal şərtlərlə təqdim edilməsi. Burada müəllimim işi ondan ibarət olmalıdır ki, pedaqoji dəstəyin fəaliyyəti çərçivəsində uşağa dəstək olmaq və həmişə ona köməklik göstərilməsinə hazırlıq nümayiş etdirmək.

Müstəqil şəkildə uşağın problemin həllinə can atması artıq özü pedaqoji işin nəticəyönümlü qurulmasından xəbər vermiş olur. Lakin bu cəhd uğursuzluğa da məhkum ola bilər. Buna səbəb olaraq pedaqoqun zamanında müdaxilə etməməsini göstərə bilərik.

Beləliklə, pedaqoji prosesdə dəstəyin mahiyyətini aşağıdakı kimi göstərə bilərik:

- müəllim pedaqoji fıaliyyətdə şəraiti elə təşkil edir ki, şagird

–öz fəaliyyətini analiz etməyə qadir olur

–etdiyi optimal seçimləri dəyərləndirir və nəticəni çıxara bilir.

- Uşağa fəaliyyətin subyekyi olaraq münasibətin olması, fərdi işin təşkili kimi anlayışa gətirib çıxara bilir. Çətinlikləri aradan qaldırılmasında, həyat fəaliyyətinə maneə olan baryerlərin dəf edilməsi işin mahiyyətini göstərir.

- Müəllim-məsləhətçi uşağın yerinə problemləri həll etmir, yalnız adekvat seçimlərin edilməsinə köməklik göstərir. Bu o zaman baş verir ki, uşağın qarşısında bir neçə seçim variantı olur, müstəqil seçimlərə hörfmətlə yanaşaraq, uşağı istiqamətləndirir.

### *Ədəbiyyat*

1. Кутейникова Е. Е. Педагогическая поддержка социализации младших школьников: автореф. дис. … канд. пед. наук. – СПб.: СПбГУ, 2002. – 23 с.
2. Кордубан И. Л. URL: http://www.ncstu.ru
3. Педагогика поддержки. http://kompunet.ru/articles/pedagogika-podderzhki/

## РЕАЛИЗАЦИЯ ФОРМ И ВИДОВ ПЕДАГОГИЧЕСКОЙ ПОДДЕРЖКИ ШКОЛЬНИКАМ

***Байрамова Зияфат Вилаят кызы, Бейдуллаева Лала Дашдемировна***

***Резюме***

Педагогическая поддержка неотъемлемая часть концептуального подхода современного образовательного процесса. Среда  современной школы сложная, ученик требует большего внимания. Одним из основных условий саморазвития, самосознания школьника в педагогической среде, формирование демократической основы отношений в школе.

Оказание своевременной педагогической поддержки в процессе, послужит быстрому решению данной проблемы. В этом процессе основное место отводится мастерству учителя и самостоятельности выбора ученика.

Решение педагогических проблем послужат движущей силой развития всего процесса.

## IMPLEMENTATION OF FORMS AND TYPES OF PEDAGOGICAL SUPPORT FOR SCHOOLCHILDREN

***Bayramova Ziyafat Vilayat,  Beydullaeva Lala Dashdamir***

***Summary***

Pedagogical support is an integral part of the conceptual approach of the modern educational process. The modern school environment is complex, the student requires more

attention. One of the main conditions for self-development, self-awareness of a student in a pedagogical environment, is the formation of a democratic basis for relations at school.

Providing timely pedagogical support in the process will serve as a quick solution to this problem. In this process, the main place is given to the skill of the teacher and the independence of the student's choice. The solution of pedagogical problems will serve as the driving force behind the development of the entire process.

***Rəyçi: dos. A.İ.Quliyev***
***Təhslin pedaqogikası və metodikası kafedrasının 08 fevral 2023-cü il tarixli iclasın 06 sayl; protokolu***
***Daxil olduğu tarix 15 fevral 2023-cü il***

**UDK: 5801.01**

# BİOLOGİYA TƏDRİSİNDƏ İNNOVASİYALARDAN İSTİFADƏ İMKANLARI

***p.ü.e.d., dosent, Babayeva Zərövşən Yaşar qızı***
***Naxçıvan Dövlət Universiteti***
***dr.zarifbabayeva@gmail.com***

**Xülasə:** *Məqalə aparılmış tədqiqatın ümumiləşdirilməsinə xidmət edir. Tədqiqatın ali və orta məktəblərdə aparılması müşahidə aparmaq üçün daha geniş şərait yaratmışdır. Məqalədə təhlilə cəlb olunmuş xarici və yerli müəlliflərin mövzu ilə bağlı fikirlərinə mövcud vəziyyətlə bağlı cavablar verilmiş, problemin təhsil sahəsində yaratdığı canlılıq və problemlər diqqətə çatdırılmışdır. Müəllimlərin təlim texnologiyalarından istifadə səviyyələrinin, müasir tədris üsulları, onlayn, virtual, distant təhsilə keçid ərəfəsində olan respublikada qarşıda duran problemlərin həlli yollarından bəhs olunmuş, tələbə və şagirdlərin təlim texnologiyalarından istifadə zamanı verilən bilikləri mənimsəmə səviyyəsi müqayisəli təhlil edilmişdir. Məqalədə STEAM metodunun tədrisə tətbiqinin müəllimi və məktəbi tamamilə başqa bir səviyyəyə qaldırması faktları şərh edilmiş, bütün ölkələrdə bu metoda marağın gündən-günə artması perspektivləri göstərilmişdir. STEAM metodu sayəsində biznesin inkişafı, maddi gəlirin artması və məhsul yaratmaq üçün xammalın əlverişli olması onun sürətlə inkişafına və yeni keyfiyyət qazanmasına səbəb olması; biologiyanın tədrisində STEAM metodundan səmərəli istifadə etmək üçün lazımi təlim mühitlərinin yaradılması zərurəti, STEAM texnologiyasının əsas istiqamətləri də araşdırılmışdır.*

**Açar sözlər**: təhsil, innovasiya, histoqram, pedaqoji eksperiment, STEAM
**Ключевые слова:** образование, инновации, гистограмма, педагогический эксперимент, STEAM
**Key Words**: edication, innovation, histogram, pedagogical experiment, STEAM

Təhsil sahəsində həyata keçirilən islahatların çoxluğu bu sahədə mövcud olan və yeni yaranmış problemlərin həllinə kömək məqsədi daşıyır. Hər gün dəyişən və yenilənən təlim texnologiyaları da hələlik bu problemlərin öhdəsindən gələ bilmir. Müasir tədris üsulları olan onlayn, virtual, distant təhsilə keçid ərəfəsində olan respublikamızda qarşıda duran problemlərin həlli hər bir tədris iştirkçısından müasir dünyada baş verən yenilikləri öyrənmək, faydalılarını tətbiq etməkdən ibarətdir. Xarici ölkə müəllifləri D.Bok, A.Deer, M.Koul, F.Kumbs,V.Qreyvs, R.Xeyvlok, E. Linton, S. Ellmana görə (3; 4) hazırda hər bir ölkədə təhsil sahəsi krizis vəziyyətindədir, yəni bu və ya digər səviyyədə müasir cəmiyyətin obyektiv tələbatlarına cavab verə bilmir. Fikrimizcə, bütün sahələrdə olduğu kimi, təhsil sistemində də daim dəyişən, dəyişdikcə özü ilə problem yaradan situasiyalar olmuş və bu problemlər yenə də aktualdır. Bütün bunların birdən-birə həllini düşünmək faydasız olduğu qədər imkansız da